# Gözlə Görə Bilmədiyinə İnanmayan Dosta Cavab

**Bəxtiyar Vahabzadə**

Ey dost, birdən-birə keçib zil simə
Dedin: —İnanmıram görmədiyimə.
Dedim: —Sən arifsən, mənsə bir avam,
Gözlə gördüyümə mən inanmıram.
Bilmirəm gözümə görünən dünya
Əslində gerçəkdir, ya sirrli röya?

Enişli-yoxuşlu bir ömür sürüb
Bildim, sağ-solumdur xeyirim, şərim.
Ən böyük gerçəkdir ağlımla görüb
Amma gözlərimlə görmədiklərim.
Göz bizi aldadır, ağla borcluyuq
Ağlın gözləri var, gözün ağlu yox.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004